**“CƏNUB QAZ DƏHLİZİ”**
**QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN**
**(“Cəmiyyət”)**

**30.04.2014-cü il tarixində AZ2001019390 nömrəsi ilə buraxılışı qeydiyyata alınmış, hər birinin nominal dəyəri 100 (yüz) ABŞ dolları olan 9,173,208 (doqquz milyon yüz yetmiş üç min iki yüz səkkiz) ədəd faizli, sənədsiz, təmin edilməmiş, adlı istiqrazların**

# EMİSSİYA PROSPEKTİNƏ DƏYİŞİKLİK
**(“DƏYİŞİKLİK”)**

**(Cəmiyyətin Müşahidə Şurasının 04.07.2023-cü il tarixli qərarına əsasən)**

**“Cənub Qaz Dəhlizi” QSC-nin baş direktoru:** Əfqan İsayev

1. Emissiya Prospektinin 13-cü bəndində "*İstiqrazlar üzrə illik faiz dərəcəsi:* 6 (altı) aylıq Libor + 1% ("**Faiz Dərəcəsi**")" sözlərindən başlayaraq həmin bəndin sonuna qədər olan hissə aşağıdakı yeni redaksiyada verilsin:

   *"İstiqrazlar üzrə illik faiz dərəcəsi İstinad Dərəcəsinə (aşağıda tərif verildiyi kimi) bərabərdir.*

   *"**Administrator**" CME Group Benchmark Administration Limited (CBA) və ya CME Müddətli SOFR faiz dərəcəsinin dərcini öz üzərinə götürən hər hansı digər şəxs;*

   *"**CME Müddətli SOFR**" Administrator tərəfindən dərc edilmiş altı aylıq müddət üçün Müddətli Təminatlı Overnayt Maliyyələşdirmə Faiz dərəcəsi ("6-month Term SOFR") deməkdir.*

   *"**Kredit Tənzimləmə Spredi (Marja)**" 0.42826%-dir (sıfır tam yüz mində qırx iki min səkkiz yüz iyirmi altı faiz).*

   *"**İstinad Dərəcəsi**" Faiz Dərəcəsinin Müəyyən Edilməsi günündə aşağıdakıların cəmidir:*

   *(a) Administator tərəfindən öz veb-saytında Faiz Dərəcəsinin Müəyyən Edilməsi günü ABŞ Mərkəzi Saat Qurşağı ("US Central Time Zone") vaxtı ilə saat 05:00 dərc edilmiş CME Müddətli SOFR (hal-hazırda bu ünvanda: https://www.cmegroup.com/market-data/cme-group-benchmark-administration/term-sofr.html);*

   *(b) Kredit Tənzimləmə Spredi (Marja); və*

   *(c) 1% (bir faiz).*

   *"**İstinad Günü**" şənbə və bazar günlərindən, habelə Administrator tərəfindən CME Müddətli SOFR faiz dərəcəsinin dərc edilmədiyi günlərdən başqa istənilən digər təqvim günü deməkdir.*

   *"**Faiz Dərəcəsinin Müəyyən Edilməsi**" – İstiqrazlar üzrə birinci faiz dövrü üçün Faiz Dərəcəsi buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi gündən 2 (iki) iş günü əvvəlki tarixə olan dərəcə ilə hesablanacaq. İstiqrazlar üzrə növbəti faiz dövrləri üçün İstinad Dərəcəsi əvvəlki faiz ödənişi tarixindən 2 (iki) İstinad Günü əvvəlki tarixə olan dərəcə ilə hesablanacaq.*

   *Qeyd: Bu Emissiya Prospekti üzrə İstinad Dərəcəsinin yuvarlaqlaşdırılması sıfır və ya tam rəqəmdən sonrakı 5 (beş) rəqəmə qədər riyazi hesablama qaydalarına əsasən həyata keçiriləcəkdir."*

2. Emissiya Prospektinin 19-cu bəndində verilmiş düsturlardakı *"**F** – istiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi"* anlayışı aşağıdakı yeni redaksiyada verilsin:

   *"**F** – İstinad Dərəcəsi".*

3. Bu dəyişiklik dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunun 7.1-ci maddəsi ilə müəyyən edilmiş vasitələrdə açıqlanacaqdır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minəcəkdir. Bu Dəyişiklik qüvvəyə mindiyi andan sonra başlayan Faiz Dövrlərinə tətbiq olunacaqdır. Bu Dəyişiklik qüvvəyə mindiyi anda davam edən Faiz Dövrünə tətbiq edilməyəcəkdir.

4. Bu Dəyişiklik qüvvəyə mindikdən sonra da, yuxarıda verilmiş dəyişikliklərdən başqa Emissiya Prospektinin digər müddəaları tam qüvvədə qalacaqdır.

5. Bu Dəyişiklikdə başqa hal nəzərdə tutulmamışdırsa, Emissiya Prospektində verilmiş anlayışlar bu Dəyişiklikdə istifadə olunduqda eyni mənanı daşıyır.